# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 19 (1680) 16 noyabr 2018 - ci il Qiymәti 50 qәpik


# Prezident İlham Əliyev Təzəpir məscidinin ətrafında görülən abadlıq-quruculuq işlərinin icra vəziyyəti ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin ətrafındakı ərazidə yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən tədbirlərin icra vəziyyəti ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Prezident İlham Əliyevin 2016-cı ilin avqustunda imzaladığı müvafiq sərəncamlarla ayrılmış vəsaitlər hesabına Bakı şəhərinin Yasamal rayonunda yerləşən Füzuli meydanı ətrafındakı ərazidə yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin görülməsi, habelə Təzəpir məscidinin ətrafındakı ərazinin abadlaşdırılması, buranın yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və ziyarətə gələnlərə avtomobillərini saxlamaları üçün imkan yaratmaq məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən həmin ərazidə iri həcmli layihələrin icrasına başlanılıb.

İlkin mərhələdə Statistika dairəsi-Nərimanov heykəli-Füzuli meydanını əhatə edən 26 hektar ərazidə tıxacların aradan qaldırılması və yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülüb. O cümlədən Füzuli meydanını Nərimanov prospekti ilə birləşdirən yeni prospekt salınıb, yeni yol qovşaqları tikilib və mövcud küçələr genişləndirilib.

Növbəti mərhələdə isə Təzəpir məscidinin qarşısında xüsusi bağın salınması, Füzuli küçəsi boyunca Mərkəzi Parkın Nəriman Nərimanov prospektinədək davam etdirilməsi, əhali üçün istirahət-əyləncə guşələrinin yaradılması nəzərdə tutulur. Bununla da Bakı şəhərində yaşıllıq zonalarının artırılması və şəhərin ekoloji vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində növbəti mühüm addım atılmış olacaq...

...Aparılan işlərin gedişi ilə tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.



## BU SAYIMIZDA


Avropa İttifaqının Tvinninq layihəsi üzrə əməkdaşlıq məsələləri müzakirə olunub 3

Vətəndaş cəmiyyətinin inkişafında ictimai nəzarətin rolu danılmazdır 3

Yay istehsalat təcrübəsi ilə bağlı yeniliklər müzakirə edilib 4

ATU-nun professoru Revmatoloqların IV Avrasiya Konqresində çıxış edib 4

Professorumuzun metodikası ABŞ universitetində dərsliyə salındı 5

Rezidentlərin bacarıq imtahanları keçirilib 7

V Beynəlxalq Tibb Konqresi 2





Ərdəbil Tibb Elmləri Universiteti ilə də əməkdaşlığımız başlayır 3







Ümumdünya Səhiyyə Təşkilatı ilə əlaqələrimiz genişləndirilir 2





Türkiyəli cərrahlara ATU-nun medalı təqdim olunub 2

Təbib



# Ümumdünya Səhiyyə Təşkilatı ilə əlaqələrimiz genişləndirilir

**Ümumdünya Səhiyyə təşkilatının (ÜST) Azərbaycandakı ofisinin rəhbəri xanım Hande Harmancının rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin qonağı olub. Nümayəndə heyəti ilə görüş zamanı ATU-nun rektoru, professor Gəray Gəraybəyli universitetlə ÜST arasında uzun illik əməkdaşlığın mövcud olduğunu bildirərək qeyd edib ki, hələ 10 il əvvəl Azərbaycanda psixi sağlamlıq üzrə milli koordinator qismində ÜST ilə birgə işlər görülüb.**

G.Gəraybəyli ÜST-nin Azərbaycan ofisinin rəhbərinin Türkiyə təmsilçisi olmasından məmnunluğunu dilə gətirdi, Azərbaycan Tibb Universitetinin Türkiyənin ali məktəbləri ilə dostluq və qardaşlıq münasibətlərinə əsaslanan xüsusi əlaqələrinin mövcud olduğunu bildirdi.



ATU-nun tədris proqramında yenilik və islahatlar barədə qonağa məlumat verən rektor yaxın vaxtlarda bakalavr proqramı üzrə "tibb bacısı" və ictimai səhiyyə, fizioterapiya ixtisaslarının açılmasının nəzərdə tutulduğunu bildirib. Qeyd edib ki, tibb təhsili (health menegment) və ictimai səhiyyə (public health) ixtisaslarının təsis olunması üçün işlər görülür. Tibbi təhsil yönündə də master proqramı hazırlanıb.

G.Gəraybəyli qeyd edib ki, bu ildən etibarən ATU-da "Təhsilin keyfiyyətinin təminatı sistemi haqqında" bəyannamə imzalanıb. Və artıq ATU-nun müəllim heyətinin peşə fəaliyyəti reytinq balları ilə qiymətləndirilir. Gələcəkdə qabaqcıl tədris prosesinə nail olmaq üçün tam müasir, praktik, tam elektronlaşmış hibrid laboratoriyasının yaradılması planlaşdırılır. Həmçinin, müasir, kompüter zalları olan kitabxanaların quraşdırılması da nəzərdə tutulur. Professor G.Gəraybəyli bu və digər istiqamətdə ÜST ilə əməkdaşlığa şad olacağını bildirdi.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan ofisinin rəhbəri Dr. Hande Harmancı Bakıda işə başladığı qısa müddət ərzində bir çox görüşlər keçirdiyini bildirdi. İxtisasca tibb təhsili alan və Mərmərə Universitetində 11 il professor kimi işlədiyini deyən Hande xanım Tibb Universiteti ilə əlaqələrin gücləndirilməsinə daha çox önəm verdiyini dedi: "Çünki planlaşdırdığımız yeniliklərin bir qismi tibb sahəsinə aid olduğundan, bu, çox əhəmiyyətlidir. Bundan əvvəl Mərmərə Universitetində "Tibb təhsilinin keyfiyyətinin artırılması" üzrə 5 illik proqram icra etdik.

Layihənin nəticəsi çox gözəl oldu. Ümid edirəm ki, Azərbaycan Tibb Universiteti ilə də nümunəvi əməkdaşlığımız olacaq və sizin tələbələrə bacardığımız yardımı göstərə biləcəyik".

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov, ÜST-un proqram üzrə koordinatoru Cəvahir Süleymanova iştirak edirdilər.

# V Beynəlxalq Tibb Konqresi

**Noyabrın 1-də Azərbaycan Tibb Universitetində V Beynəlxalq Tibb Konqresi öz işinə başlayıb. Dövlət Himnimizin sədaları altında konqresin təntənəli açılışı olub. Konqresdə ATU-nun himni də səsləndirildikdən sonra tədbirin aparıcıları Fidan Həsənli və Ərşad Səfərov ATU-nun rektoru, professor Gəray Gəraybəylini açılış nitqi üçün kürsüyə dəvət ediblər.**



Açılış nitqində tədbir iştirakçılarına V Beynəlxalq Tibb Konqresinin təşkilat komitəsi adından dərin təşəkkürünü bildirən rektor qeyd edib ki, Azərbaycan Tibb Universitetində təbabətin müxtəlif bölmələri üzrə davamlı beynəlxalq konqreslər təşkil edilir. Bu il də ənənəvi olaraq Beynəlxalq Tibb Konqresinin keçirildiyini vurğulayan G.Gəraybəyli Türkiyənin, Rusiyanın müxtəlif universitetlərindən, Almaniyadan, İrandan, Özbəkistandan, Pakistandan, İraqdan və digər ölkələrdən 650 nəfərdən artıq gənc alim, həkim və tələbənin bugünkü konqresdə öz iştirakını rəsmiləşdirdiyini deyib: "Bütün bunlar onu göstərir ki, dünya tibb mütəxəssisləri təbabətin qarşısında duran bir çox problemlərin həlli yolunda birgə səylər göstərməyə hazırdılar. Müasir dövrdə elmi əməkdaşlığın formaları və metodları müxtəlifdir. Belə ki, Azərbaycan Tibb Universitetində artıq Türkiyə Dövlət İstanbul Universitetinin tibb fakültəsi ilə birgə müştərək onlayn konfranslar və kurslar təşkil edilmişdir. Mənə elə gəlir ki, belə konfranslar dünyanın bir çox universitetləri ilə davamlı şəkildə təşkil olunmalıdır. Hər il olduğu kimi bu il də konqres zamanı Türkiyə Beynəlxalq Endoskopik Laporaskopik Cərrahlar Dərnəyinin təşkilati dəstəyi ilə laporaskopik cərrahiyyə kursu təşkil olunacaq".



Bu kursların təşkilinə görə başda professor Cavit Avcı olmaqla bütün heyət üzvlərinə razılığını çatdıran universitetin rəhbəri ayrı-ayrı ölkələrdən olan tibb mütəxəssislərinin, tələbələrin bugünkü konqresdə iştirakını universitetimizin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi dəyərləndirib.

"Elmin hüdudları üfüqi xəttə bənzəyir. Biz ona nə qədər yaxınlaşsaq da, o bizdən bir o qədər uzaqlaşar" – deyən rektor elmin gücü ilə gənc alimlər və həkimlərin bu təzadı aradan qaldıracaqlarına, həmin alimlər arasında indiki konqres iştirakçılarının da olacağına inamını ifadə edərək konqresin işinə bir daha uğurlar arzulayıb.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən türkiyəli professor, Laporaskopik Cərrahlar Dərnəyinin başkanı Cavit Avcı tələbələrin gələcəkdə həm savadlı həkim, həm də bir tədqiqatçı kimi formalaşmasında bu cür konqreslərin əhəmiyyətindən danışıb. O, Azərbaycanla Türkiyə arasında bütün sahələrdə dünya olkələrini qısqandıracaq dərəcədə sıx əlaqələrin mövcudluğunu da xatırladıb: "Bunlardan ən əsası da tibb və təhsil sahələridir. Biz çox şadıq ki, artıq ikinci dəfə belə mötəbər bir konqres çərçivəsində kurs təşkil edirik. Bu kursun tibbin inkişafı baxımından böyük əhəmiyyəti var. Çünki cərrahi əməliyyatlarda hər gün ixtira edilən yeni metodlarla ayaqlaşmalı, bunu yeni nəslə ötürməliyik".

Daşkənd Tibb Universitetinin nümayəndəsi doktor Sardorxoca Sızdıkxocayev də konqresdə çıxış edərək ürək sözlərini tədbir iştirakçıları ilə bölüşüb. O, təmsil etdiyi ali təhsil ocağının simvolu olan kostyumu ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə təqdim edib.

Yüksək səviyyədə keçən beynəlxalq tədbirin bağlanışında çıxış edən ümumi cərrahlıq kafedrasının müdiri, professor Elçin Ağayev ən böyük uğurlarımızın bu zalda axıra qədər səbrlə oturub konqresin gedişinə gözəllik qatan, elmimizin, təhsilimizin, səhiyyəmizin gələcəyi olan tələbələrlə bağlılığını önə çəkib.

TEC-in sədri, dosent Müşfiq Həsənov konqresin gedişatını diqqətdə saxladığına görə ilk növbədə universitetin rektoru, professor Gəray Gəraybəyliyə təşəkkürünü bildirib. Plenar iclaslarda tibbin bütün sahələrini əhatə edən çox maraqlı məruzələrin dinlənildiyini söyləyən M.Həsənov Azərbaycan Tibb Universitetində gənc tədqiqatçıların yetişdirilməsində TEC-in elmi rəhbəri, professor Amaliya xanım Əyyubovanın müstəsna xidmətlərindən də söz açıb. O, tədqiqatçı tələbələri, onların elmi rəhbərlərini, valideynlərini təbrik edərək bütün konqres iştirakçılarına, qonaqlara bu mötəbər tədbirə qatıldıqları üçün bir daha hörmət və ehtiramını çatdırıb.

İki gün davam edən, açılışı və bağlanışı bədii hissə ilə müşayiət olunan beynəlxalq konqresdə 160 elmi işə baxılıb. Konqresin işində 43 çıxış, 59 poster təqdim olunub. Sonda qaliblər diplom və sertifikatlarla təltif ediliblər.

**Arif MƏMMƏDLİ**

# Türkiyəli cərrahlara ATU-nun medalı təqdim olunub

**Xəbər verdiyimiz kimi Azərbaycan Tibb Universitetində tələbələrin və gənc alimlərin V Beynəlxalq Konfransı keçirilib. Konfrans çərçivəsində Türk Endoskopik Laporoskopik Cərrahiyyə dərnəyinin rəhbəri, professor Cavit Avcının başçılığı ilə dərnəyin nümayəndə heyəti ATU-nun rektoru, professor Gəray Gəraybəylinin qonağı olublar.**



Görüş zamanı professor Gəray Gəraybəyli universitetlə Türk Endoskopik Laporoskopik Cərrahiyyə dərnəyi arasında əlaqələrin getdikcə daha da sıxlaşmasından məmnunluğunu dilə gətirib: "Azərbaycan Tibb Universitetinin xarici əlaqələri sırasında Türkiyənin ali məktəbləri ilə münasibətlər bizim üçün xüsusi yer tutur. Ötən il Hacettepe Universiteti ilə əməkdaşlığa dair saziş imzalamışıq. Bu yaxınlarda Erzurum Atatürk Universiteti ilə daha sıx əlaqələr qurmaq üçün ATU-nun nümayəndə heyəti orada olacaq. Bizim indi əsas hədəfimiz tədris proqramlarının dəyişdirilməsi və tamamilə beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. İnanırıq ki, buna nail olduqdan sonra tələbə mübadiləsi daha da aktivləşəcək". G.Gəraybəyli xatırladıb ki, hər il YÖK-ün xətti ilə Türkiyədən 150-yə yaxın tələbə Azərbaycan Tibb Universitetinə gəlir. Lakin gələcəkdə bu göstəricinin daha da yüksələcəyini gözləmək olar.

Türk Endoskopik Laporoskopik Cərrahiyyə Dərnəyinin rəhbəri, professor Cavit Avcı qeyd edib ki, konqres üçün xüsusi kursların təşkili çox önəmli və faydalıdır: "Biz hamımız həm müəllim, həm də həkim cərrahıq. Ona görə də bildiyimizi öyrətməyə, paylaşmağa çalışırıq. Cərrahiyyə daxilində laporoskopik cərrahiyyə tibbin gəlib çıxdığı ən vacib nöqtələrdən biridir. Burada telesəhiyyə də mühüm rol oynayır. Ona görə də telesəhiyyənin imkanlarından yararlanmağı öyrətmək lazımdır. İnanıram ki, laporoskopik cərrahiyyə gələcəkdə daha da inkişaf edəcək".

Görüşdə Türk Endoskopik Laporoskopik Cərrahiyyə dərnəyinin təşkilatçılığı ilə növbəti konfransın təşkili məsələsi də müzakirə olunub. Sonda rektor G.Gəraybəyli qonaqlara ATU-nun medalını hədiyyə etdi.

# Avropa İttifaqının Tvinninq layihəsi üzrə əməkdaşlıq məsələləri müzakirə olunub

**Azərbaycan Tibb Universitetinin rəhbərliyi ilə Avropa İttifaqının maliyyələşdirdiyi “Azərbaycanda icbari tibbi sığorta sisteminin tətbiqinə dəstək” Tvinninq layihəsinin nümayəndələri arasında görüş keçirilib. Görüşdə layihə çərçivəsində əməkdaşlıq məsələləri, ATU-nun tələbə və rezidentlərinin faydalana biləcəyi kursların təşkili ilə bağlı müzakirələr aparılıb.**



Tvinninq layihəsinin daimi müşaviri Qediminas Çerniauskas layihə çərçivəsində görülən və planlaşdırılan işlərdən danışıb. O, ATU ilə əməkdaşlıq üçün müxtəlif istiqamətlərdə imkanların olduğunu vurğulayıb. Bunlardan biri də tibbi sığorta, xəstəxanaların sığorta şirkətləri ilə müqaviləsi, bu sistemdə informasiya texnologiyalarının tətbiqi ilə bağlı məsələləri əhatə edən kursların təşkili ilə bağlıdır: “Təşkil etdiyimiz kurslar əsasən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşları üçün nəzərdə tutulub. Amma çox istərdik ki, bu təlimlərə Azərbaycan Tibb Universitetinin müəllimləri və tələbə-rezidentlərini də cəlb edək”.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli əməkdaşlığa dair təkliflə görə minnətdarlığını bildirib: “Bizi bu əhəmiyyətli layihədə tərəfdaş kimi gördüyünüz üçün çox təşəkkür edirəm. Biz layihə əsasında əməkdaşlıq sahələrini müzakirə edə bilərik. Hazırda bizim həm İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, həm də Qida Təhlükəsizliyi Agentliyi ilə əməkdaşlıq planlarımız var. İcbari tibbi sığorta sisteminin tətbiqinə dəstək məqsədilə icra olunan bu layihənin də imkanlarından yararlana bilərik”.

Görüşdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Səhiyyə siyasəti və kliniki kodlaşdırma şöbəsinin müdiri Şərafət İsmayılova, ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalov iştirak ediblər. Müzakirələr zamanı Tvinninq layihəsi çərçivəsində ATU-nun yuxarı kurs tələbələri və rezidentlər üçün yeni ixtisas seçiminə yardım məqsədilə kursların təşkili ilə bağlı fikir müsbət qarşılanıb. Bu layihənin həmçinin, ATU-da elmi- tədqiqatla məşğul olan gənc həkimlər üçün də yaxşı imkanlar açdığı vurğulanıb.

**Oktyabrın 31-də İctimai Nəzarət Şurasının üzvləri ilə ATU-nun müəllim-tələbə heyətinin görüşü olub. Tədbiri giriş sözü ilə açan ATU-nun əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, “Gənc vətəndaş” İctimai Birliyinin sədr müavini Aidə Bəndəliyeva çalışdığı universitetin ölkənin aparıcı ali təhsil ocaqlarından biri olduğunu və bu universitetin gələcəyin ziyalı ordusunu yetişdirdiyini nəzərə alaraq, bu kimi tədbirlərin universitetdə təşkil olunmasının əhəmiyyətinə toxunub.**



# Vətəndaş cəmiyyətinin inkişafında ictimai nəzarətin rolu danılmazdır

Görüşdə ölkədə fəaliyyət göstərən 710 QHT-ni özündə birləşdirən Azərbaycan Milli Qetri-Hökumət Təşkilatları Forumunun Prezidenti Rauf Zeyni çıxış edib. “Müasir Azərbaycanın inkişafında vətəndaş cəmiyyətinin rolu” mövzusunda çıxış edən R.Zeyni tədbirin keçirilməsinə şərait yaratdığına görə, universitetin rektoru, professor Gəray Gəraybəyliyə, Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımova təşəkkürünü bildirib. Qeyd edib ki, vətəndaş cəmiyyətinin formalaşmasında əsas prioritet kimi insan hüquq və azdlıqlarının qorunması dayanır. O, ulu öndər Heydər Əliyevin bu məsələyə ciddi önəm verdiyini və məhz onun rəhbərliyi altında Azərbaycan Konstitusiyasına insan haqlarının qorunması ilə bağlı bir sıra maddələrin salındığını qeyd edib: “Amma çox təəssüf ki, dövlətin ayrı-ayrı strukturlarında çalışan bəzi vəzifəli şəxslər qanunlara riayət etmir, vətəndaşların tanınan hüquqalarını kobud şəkildə pozurlar. “Cənab Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, vəzifəli şəxslərin, o cümlədən dövlət məmurlarının fəaliyyətinə ictimai nəzarət lazımdır. Biz də Şuranın üzvləri kimi bu nəzarəti təkbaşına etmək imkanlarına malik deyilik. Ona görə ictimai dəstəyə və məhz sizlərin dəstəyinə böyük ehtiyacımız var. Cəmiyyətdə yaşanılan hər bir hüquq pozuntularına ictimai təpki olmalıdır ki, qarşılaşacağımız neqativ halları tez bir zamanda aradan qaldıra bilək.”

R.Zeyni ictimai təşkilatlar tərəfindən təşkil edilən, ölkənin elmi və ictimai həyatı üçün əhəmiyyət kəsb edən bir sıra tədbirlərin Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Dəstək Şurası və Gənclər Fondu tərəfindən dəstəkləndiyini qeyd edib. Müəllim və tələbələrə dövlətin yaratdığı bu şəraitdən maksimum yararlanmağı tövsiyə edib.

Sonra “İki sahil “qəzetinin baş redaktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə çıxış edib. O, mətbuatın vətəndaş cəmiyyətinin inkişafında danılmaz rolundan söhbət açıb. Məhz ulu öndərin tapşırığı ilə mətbuatda senzuranın ləğv edilməsinin və bunun söz və ifadə azadlığının inkişafı üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb: “Amma təəssüf ki, bəzi KİV nümayəndələri onlara verilmiş ifadə və söz azadlığından sui-istifadə edərək dezinformasiyalar yaymaq, ictimaiyyəti çaşdırmaqla məşğuldurlar. Bu tipli KİV nümayəndələrinə və KİV-lərə qarşı tərəfimizdən tədbirlər görülür və görülməkdədir. Biz vətəndaş cəmiyyətində fəallığın artırılması istiqamətində maarifləndirmə işlərini görürük ki, gələcəkdə neqativ hallara qarşı aparılan mübarizə lazımi nəticəsini versin”.

“Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı” İctimai Birliyinin sədri, QHT-lərin Antikorrupsiya Şəbəkəsinin üzvü Əhməd Abbasbəyli də öz çıxışında vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində QHT-lərin və onların üzvü olduğu Şuranın apardığı mübarizədən söhbət açıb. Cəmiyyətdəki neqativ, korrupsiya, bürokratik və s. hallara qarşı mübarizədə cəmiyyətin passivlik nümayiş etdirdiyini təəssüf hissi ilə qeyd edib. O, tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, üzləşdikləri qanunsuzluqlara qarşı seyrçi münasibət bəsləməsin, dərhal lazımi orqanlara və o cümlədən bu istiqamətdə fəaliyyət göstərən QHT-lərə müraciət etsinlər: “Yəqin mətbuatdan da izləyirsiniz, hansısa vətəndaşın hüququ pozulanda onların yanında insan hüquqlarının qorunması ilə məşğul olan QHT-lər dayanır.”

Universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən belə bir tədbirin ATU-da keçirilməsinin təşəbbüskarı olduqları üçün Şuranın üzvlərinə minnətdarlığını bildirib.

O, son illər universitetdə aparılan islahatların olduqca şəffaf şəkildə həyata keçirildiyini qeyd edib. Cəmiyyətdə neqativ halların həlı də qaldığından təəssüflənən C.Qasımov bu istiqamətdə lazımi səviyyədə mübarizənin aparılmasına ehtiyac olduğunu vurğulayıb.

Qeyd edək ki, mövzu iştirakçılar tərəfindən geniş diskussiya şəklində aparılıb,iştirakçıları düşündürən suallar ətraflı cavablandırılıb.

**Qabil ABDULLAYEV**

# Ərdəbil Tibb Elmləri Universiteti ilə də əməkdaşlığımız başlayır

**Azərbaycan Tibb Universitetində mindən çox əcnəbi tələbə təhsil alır və onlar arasında İrandan olanlar üstünlük təşkil edir. Bu haqda Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Ərdəbil Tibb Elmləri Universitetinin nümayəndə heyəti ilə görüşündə bildirib.**

Qonaqlarla görüş zamanı professor G.Gəraybəyli ATU ilə İrandakı ali məktəblər arasında əlaqələrin gücləndirilməsinə ehtiyac olduğunu bildirdi. Bu baxımdan, Ərdəbil Tibb Elmləri Universiteti ilə də münasibətlərin başlanğıcının qoyulmasından məmnun olduğunu söylədi.

Rektor Gəray Gəraybəyli ATU-nun ölkəmizdə ixtisaslaşmış tibb təhsili verən yeganə ali müəssisə olduğunu qeyd etdi. Rektor ATU-dakı təhsil və tədris prosesi, yeni yaradılan fakültələr, son illər aparılan islahatlar, qarşıdakı hədəf və planlar haqqında məlumatları açıqladı.

ATU-nun beynəlxalq işləri üzrə prorektoru Nadir Zeynalov universitetin nəzdində fəaliyyət göstərən klinikalar, burada həm tədris, həm də müalicə işinin yüksək səviyyədə aparılması haqqında qonaqlara ətraflı





məlumat verdi. ATU-nun beynəlxalq əlaqələrindən danışan prorektor qeyd etdi ki, İran universitetləri ilə tələbə mübadiləsi və digər sahədə qarşılıqlı əlaqələr digər ölkələrə nisbətən zəifdir. Odur ki, eyni regionda və bizimlə demək olar eyni dili paylaşan Ərdəbil Tibb Elmləri Universiteti kimi bir ali məktəblə münasibətlərin inkişafına tələbat var.

Ərdəbil Tibb Elmləri Universitetinin rektoru Ghodrat Axavan-Akbari İranda səhiyyə sistemi, tibb təhsili verən ali məktəblər haqqında ümumi məlumat verdi. Həmçinin, rəhbərlik etdiyi Ərdəbil Tibb Universitetinin təhsil sistemi, universitetin strukturu barədə təfərrüatları açıqladı. Qeyd etdi ki, rəhbərlik etdiyi ali məktəbin 3400-ə yaxın tələbəsi var. Altı fakültəsi olan bu universitetin Ərdəbildən kənar iki vilayətdə də binası, 20 laboratoriyası var. Burada tələbələr müalicə, əczaçılıq, tibb bacısı, stomatologiya və beynəlxalq fakültələrdə təhsil alırlar. Universitetdə beynəlxalq standartlara uyğun səviyyədə təhsil verilir.

Prorektor Masood Entezariasl Ərdəbil Tibb Elmləri Universitetinin fəaliyyəti ilə bağlı qısa təqdimat da keçirdi. Qonaqlar ATU ilə əməkdaşlıq etmək niyyətində olduqlarını, ilk mərhələdə bunun qarşılıqlı elmi tədqiqat işləri ilə bağlı aparıla biləcəyini bildirdilər. Sonrakı mərhələlərdə Azərbaycan Tibb Universiteti və Ərdəbil Tibb Elmləri Universiteti arasında tələbə mübadiləsi, daha sonra isə Azərbaycandan tələbə qəbulunun mümkün ola biləcəyi vurğulandı. Qeyd olundu ki, Ərdəbildə danışıq dili Azərbaycan dilinə çox yaxın olduğundan, qarşılıqlı təmaslarda problem yaranmayacaq.

Görüşün sonunda Ərdəbil Tibb Elmləri Universitetinin rektoru Ghodrat Axavan-Akbari başda professor Gəray Gəraybəyli olmaqla ATU rəhbərliyini Ərdəbilə dəvət etdi. Professor G.Gəraybəyli bu görüşün gələcək əməkdaşlığın təməli olacağına əminliyini bildirdi.

Görüşdən sonra İrandan gələn qonaqlar ATU-nun klinikalarını da ziyarət ediblər.

**ATU-nun mətbuat xidməti**

# Yay istehsalat təcrübəsi ilə bağlı yeniliklər müzakirə edilib

**Tədris Cərrahiyyə Klinikasında yay istehsalat təcrübəsi ilə bağlı mövcud vəziyyət və problemlərə həsr olunmuş müzakirə keçirilib.**

ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev istehsalat təcrübəsinin ATU-dakı tədris proqramının ən vacib sahələrindən biri olduğunu vurğulayıb: "Tibb təhsili verən müəssisələrdə yay praktikası çox əhəmiyyətlidir. Çünki gələcəkdə həkim olacaq bir tələbə üçün praktika olduqca vacibdir. Təhsil Nazirliyinin təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına dair xüsusi qərarından sonra ATU-da da tədrisin yeni standartlara uyğun, daha keyfiyyətli şəkildə aparılması üçün müəyyən dəyişikliklər tətbiq olundu".



S.Əliyev bu dəyişikliklərdən birinin də yay istehsalat təcrübəsinin semestr daxilinə keçirilməsi ilə əlaqədar olduğunu, prosesi daha keyfiyyətli təşkil etmək üçün kafedra müdirlərinin üzərinə böyük məsuliyyət düşdüyünü söyləyib.

Klinikanın direktoru, professor Surxay Hadıyev rəhbərlik etdiyi müəssisədə tədrisin keyfiyyətinin yüksəldilməsi üçün hər cür şəraitin yaradıldığını, tələbələrin praktiki bacarıqlarının təkmilləşdirməsi üçün tədris-treninq mərkəzinin avadanlıqla təchiz edildiyini, klinikadakı mulyajlarin da tədris prosesinin gedişinə yardım göstərə bildiyini deyib.

Təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri Akif Qurbanov peşə təcrübəsinin yayda yox, cari tədris ilində keçirilməsi haqqında qərarın müsbət tərəflərini qeyd edib. Onun sözlərinə görə, yeni sistemin oturuşması və bu sistemə adaptasiya üçün müəyyən müddət tələb olunur. Lakin gücləndirilmiş rejim sayəsində bütün məsələlərin həllinə nail olmaq mümkündür.

Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Nadir Zeynalov istehsalat təcrübəsi ilə bağlı dəyişikliyin tətbiqində üzə çıxa biləcək bəzi məsələlər və onların həlli yollarından danışıb. Qeyd edib ki, universitetimiz uzun illərin təcrübəsi və ənənələrinə malikdir: "Bunun sayəsində sistemləşmə ilə bağlı problemləri həll edə biləcəyik. Qeyd edim ki, xarici ölkələrdə ATU-nun diplomunun tanınmasında da praktika ilə bağlı məsələ önəmli yer tutur".

Müzakirələrin sonunda istehsalat təcrübəsi şöbənin müdiri, dosent Tariyel İsmayılov praktikanın hazırkı durumuna aydınlıq gətirərək tətbiq olunacaq yeni qaydalarla bağlı izahat verib.

***

Tədris Terapevtik Klinikasında da yay istehsalat təcrübəsi ilə bağlı yeniliklər müzakirə olunub.

Universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev istehsalat təcrübəsi zamanı kafedra müdirləri ilə yanaşı baza rəhbərlərinin də üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayan prorektor qeyd edib ki, ölkə rəhbərinin xüsusi qayğısı ilə yaradılan tədris klinikaları ilk növbədə tələbələrə xidmət göstərməlidir: " Çünki biz onlara görə buradayıq. 40-dan artıq kafedranın yerləşdiyi bu klinikalar tədris prosesini yüksək səviyyədə aparmaq, eləcə də tələbələrə praktiki vərdişləri öyrətmək üçün zəruru avadanlıqlarla təchiz edilib. Tələbələr mövcud imkanlardan yetərincə faydalanaraq ekstremal vəziyyətdə hər cür yardım göstərməyə hazır olmalıdır".

Çıxışında tələbələrin haqlı şikayətlərinə də yer ayıran prorektor istehsalat təcrübəsinin yüksək səviyyədə aparılmasında müəllimlərin şəxsi keyfiyyətlərinin mühüm rol oynadığını da önə çəkərək yeni dəyişiklərlə bağlı tövsiyələrini verib.

Təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri, professor Akif Qurbanov hər bir yeniliyin, islahatın başlanğıcda bir qədər kövrək addımlara malik olduğunu, hətta bəyənilmədiyini deyərək yay istehsalat təcrübəsinin gündəlik tədrislə birbaşa birləşdirilməsinin zərurətdən meydana çıxdığını diqqətə çatdırıb. Xatırladıb ki, kuratorların tələbələrə nəzarəti qənaətbəxş deyildi. Tələbələr isə yay praktikasında vaxt itirməkdən başqa heç nə qazana bilmirdilər.

Terapevtik və pediatrik propedevtika kafedrasının müdiri, professor İbrahim İsayev başqa ali məktəblərdən fərqli olaraq Tibb Universitetində tələbələrin təkcə məzun kimi deyil, həm də praktiki fəaliyyətə hazırlandığını vurğulayıb. O, kliniki kafedralarda tədris aparan bəzi müəllimlərin hazırlıq səviyyəsinin müasir tələblərə cavab vermədiyini əsas gətirərək onların pedaqoji fəaliyyətini istiqamətləndirmək üçün metodiki bilgilərini təkmilləşdirməyin vacibliyindən söhbət açıb.

Qeyd edib ki, müəllim dərsə girərkən nədən başlamalı və necə qurtarmalı olduğunu bilməli, əvvəlcədən qarşıya qoyulan tezisləri yerinə yetirməlidir. Dərsin gedişində ortaya çıxan məsələlərə necə yanaşması isə müəllimin şəxsi bacarığından asılıdır. Praktiki təcrübə keçən tələbələrə klniki bazalarda fərqli münasibət göstərildiyini bildirən kafedra müdiri tədris terapevtik və onkoloji klinikalarda peşə təcrübəsi proqramının yerinə yetirilməsinə hər cür şərait yaradıldığını və bu münasibəti digər bazalardan da gözlədiklərini deyib.



İstehsalat təcrübəsi şöbəsinin müdiri, dosent Taryel İsmayılov bildirib ki, istehsalat təcrübəsi müalicə fakültələrinin III kursunda orta tibb işçisi, IV kursunda ailə həkiminin köməkçisi, V kursunda isə həkim köməkçisi proqramı üzrə aparılır. Səhiyyə nazirinin əmrində baza kimi göstərilən klinika rəhbərlərinin də yeni qaydaların tətbiqində cavabdehlik daşıdıqlarını vurğulayan şöbə müdiri bəzi kafedralarda bu məsələyə məsuliyyətsiz yanaşıldığından təəssüfləndiyini, ancaq bütün çatışmazlıqlara baxmayaraq artıq tətbiqinə başlanılan yeniliklərin uğurla nəticələnəcəyinə əminliyini söyləyib.

# ATU-nun professoru Revmatoloqların IV Avrasiya Konqresində çıxış edib

**Azərbaycan Tibb Universitetinin fizioterapiya və tibbi reabilitasiya kafedrasının professoru Nadir Hüseynov Moskva şəhərində Rusiya Elmlər Akademiyasının akademik V.A.Nasonova adına Elmi-Tədqiqat Revmatologiya İnstitutunun yaradılmasının 60 illiyinə həsr olunmuş "Revmatoloqların IV Avrasiya Konqresi"ndə iştirak edib.**



Konqres Rusiya Federasiyası Elm və Təhsil Nazirliyinin, Səhiyyə Nazirliyinin və V.A.Nasonova adına Elmi-Tədqiqat Revmatologiya İnstitutunun dəstəyi ilə Rusiya Elmlər Akademiyasının binasında keçirilib.

Konqres 100-dən artıq revmatoloji xəstəliklərin aktual problemlərinin həllinə - diaqnostika, klinika, müasir müalicə üsulları və dispanserizasiya mövzularına həsr olunmuşdur.

Xəstələrdə baş verən əlilliyə görə revmatik xəstələrin kardioloji və onkoloji xəstəliklərdən sonra 3-cu yerdə durması konqresdə xüsusilə vurğulanmış, cəmiyyət üçün böyük tibbi və sosial problem olması qeyd olunmuşdur.

Konqresdə 1200-dən cox həkim-revmatoloq iştirak edirdi. MDB dövlətlərindən 26, Qərbi Avropa və Amerikadan 14 nüfuzlu və tanınmış lektorun müxtəlif mövzularda mühazirələr oxuduğu konqresin plenar sessiyasında Azərbaycan Tibb Universitetinin professory N.Hüseynov 2 elmi məruzə ilə çıxış etmişdir.

O, institutun 60 illik yubileyinə həsr olunmuş tədbirdə çıxış edərək, institutun kollektivinə yubiley münasibəti ilə ünvanlanmış təbrikini çatdırmış və Azərbaycan Tibb Universitetinin kollektivi adından milli xalçamızı hədiyyə etmişdir.

Professor Nadir Hüseynov elmi-praktik revmatologiyanın inkişafı sahəsində uzunmüddətli beynəlxalq əməkdaşlığa və verdiyi töhvəyə görə Rusiya Elmlər Akademiyasının akademik V.A.Nasonova adına Elmi-Tədqiqat Revmatologiya İnstitutunun və Ümumrusiya Revmatoloqlar Assosiasiyasının diplomuna layıq görülmüşdür. Eyni zamanda Rusiya Federasiyasının Ali Attestasiya Komissiyasının siyahısına daxil olan "Elmi-Praktik Revmatologiya Jurnalının" redaksiya kollegiyasının üzvü seçilmişdir.

Konqresdə Rusiya Revmatoloqlar Assosiasiyasının və Avrasiya Revmatoloqlar Liqasının ümumi yığıncağında əməkdaşlığın perspektivləri müzakirə olunaraq xüsusi "Bəyənnamə" qəbul edilmişdir.

# ATU-nun endokrinoloqları Türkiyədə keçirilən təlim kursuna qatılıblar

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının endokrinoloq cərrahları t.ü.f.d. Azər Hümmətov və Esmira Məmmədova noyabrın 1-dən 4-ə kimi Türkiyədə keçirilən təlim kursunda iştirak ediblər.**

ATU-nun mütəxəssisləri "17. Medikal Cerrahi Mezuniyet sonrası eğitim kursu"na qatılıblar. Təlim-kursda Azər Hümmətov "Azərbaycanın endemik bölgələrində tiroid xəstəliklərinin yayılma tezliyi", Esmira Məmmədova isə "Azərbaycanın endemik və qeyri-endemik bölgələrində tiroid düyünlərinin malign riski" mövzularında məruzələrlə çıxış ediblər.



Burada "Haşimoto tiroiditində infra qırmızı lazer terapiyanın rolu" və "Tiroid düyünlərində lazer ablasiya" mövzularında posterlər təqdim olunub.

# Əməkdaşlarımız Soçidə beynəlxalq elmi-praktik konfransda

**Oktyabrın 30-dan noyabrın 2-dək Rusiyanın Soçi şəhərində "Sosial əhəmiyyətli və xüsusi təhlükəli yoluxucu xəstəliklər" mövzusunda V beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Konfransda Azərbaycan Tibb Universitetinin mikrobiologiya və immunologiya kafedrasının professoru Nigar Ağayeva, dosent Həyat Əliyeva, patoloji fiziologiya kafedrasının baş müəllimi Sevinc Hacıyeva iştirak ediblər. Tədbirdə bölmə sədrliyi N. Ağayevaya həvalə edilib. O, həmçinin "Müəyyən növ göbələklərin antibiotiklərə qarşı həssaslığı" mövzusunda məruzə ilə çıxış edib.




**ATU-nun mətbuat xidməti**

# Professorumuzun metodikası ABŞ universitetində dərsliyə salındı

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının plastik və konstruktiv cərrahı, professor Vaqif Qələndərin metodikası ABŞ-ın Florida Tibb Universitetində nəşr olunan dərslikdə dərc olunub.**




Belə ki, Vaqif Qələndərin ilk dəfə yaratdığı cərrahiyyə metodikası Florida Tibb Universitetinin professoru Rui Fernandesin yazdığı dərslik kitabının 20-ci fəslində yer alıb. Bu kitab tələbələrin və mütəxəssislərin sözügedən sahə üzrə hazırlanmasında stolüstü dərslik rolunu oynayacaq.

V.Qələndərin sözlərinə görə, bu, onun üçün qürurverici bir hadisədir: "Florida Universitetindən belə bir təklif alanda çox şad oldum. Adıçəkilən universitetdə elmi görüşdə iştirak etdim. Ali təhsil ocağının rəhbərliyi və müəllim heyəti ilə görüşdüm. Bu, həm Azərbaycan Tibb Universiteti, həm də mənim üçün çox böyük uğurdur".

Professor Vaqif Qələndər səfər çərçivəsində ABŞ-da keçirilən beynəlxalq konfransda da iştirak edib.

# Mütəxəssislərimiz V Beynəlxalq Dodaq və Damaq Yarığı konfransında

**Bakıda beşinci dəfə Beynəlxalq Dodaq və Damaq Yarığı konfransı keçirilib. Səhiyyə Nazirliyinin dəstəyilə təşkil olunan konfrans Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Türkiyə Dodaq və Damaq Yarıqları Dərnəyi, Azərbaycan Plastik Cərrahiyyə İctimai Birliyi, Azərbaycan Ağız və Üz-Çənə Cərrahları Cəmiyyətinin təşkilatçılığı ilə baş tutub.**




Konfransda ADHTİ-nin rektoru, professor Nazim Qasımov açılış nitqi ilə çıxış edib. Konfransın sədri, ATU-nun ağız və üz-çənə kafedrasının professoru Vaqif Qələndər bu beynəlxalq tədbirə dəstək olan hər kəsə öz minnətdarlığını bildirib. Məşhur cərrah son illər ölkəmizdə plastik cərrahiyyə, o cümlədən üz-çənə, dodaq və damaq yarığı cərrahiyyəsi sahəsində əldə edilən uğurlar və tibbi yeniliklərin tətbiqi barədə danışıb.

Konfransda Azərbaycan Tibb Universitetinin ağız üz-çənə cərrahiyyəsinin kafedra müdiri Çingiz Rəhimov, Təkmilləşdirmə İnstitutunun, ölkənin dövlət və özəl klinikalarının qabaqcıl mütəxəssisləri iştirak ediblər. Konfransda qeyd olunub ki, tədbir bu sahədə fəaliyyət göstərən mütəxəssislərin nəzəri bilikləri və praktiki vərdişlərinin təkmilləşdirilməsi üçün çox faydalıdır.

Toplantı zamanı ölkəmizin və Türkiyənin tanınmış mütəxəssisləri cərrahiyyənin bu sahəsində dünyada baş verən yeniliklər, öz təcrübələrində üzləşdikləri hallar və tətbiq olunan ən son tibbi üsullar barədə məruzələrlə çıxış ediblər.

Ümumilikdə iki gün davam edən konfrans çərçivəsində 28 xarici və 14 yerli mütəxəssisin mühazirələri səsləndirilib. Sonda iştirakçılara "DTT. Davamlı Tibbi Təhsil 13 kredit" balla təmin olunmuş sertfikatlar verilib.

# “Antimikrob preparatlara davamlılığın azaldılmasında maarifləndirmə həftəsi”nə həsr olunmuş dəyirmi masa

**Noyabrın 12-də Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi və təşkilatçılığı ilə “Antimikrob preparatlara davamlılığın azaldılmasında maarifləndirmə həftəsi”nə həsr olunmuş dəyirmi masa keçirilib.**



Dəyirmi masada Səhiyyə Nazirliyinin, Azərbaycan Tibb Universitetinin və Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri iştirak ediblər. Dəyirmi masa iştirakçıları antimikrob preparatlara davamlılığın qlobal bir problem olduğunu qeyd edib, onun qarşısının alınmasında ayrı-ayrı təşkilatların və ictimaiyyətin rolu haqqında fikir mübadiləsi apardılar.

Dəyirmi masada universitetimizin təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri, professor Akif Qurbanov, Ümumi cərrahlıq kafedrasının müdiri professor Elçin Ağayev, Tədris Cərrahiyyə kinikasının laboratoriyasının müdiri dosent Yavər Hacıyev təmsil ediblər.

Professor Akif Qurbanov “Antimikrob preparatlara davamlılığın azaldılmasında Azərbaycan Tibb Universitetinin rolu” adlı məruzə ilə çıxış edib. O, çıxışında antimikrob preparatlara davamlılıq haqqında ATU-nun təhsil proqramında nəzərdə tutulmuş mövzulardan bəhs edib, bu təhsil ocağının klinikalarında aparılan müasir laborator müayinələrin və müalicə üsullarının bu sahədəki rolundan danışıb.

Sonda dəyirmi masa iştirakçıları antimikrob preparatlara davamlılığın azaldılması üçün müvafiq qurumların və ictimaiyyətin rolu haqqında hədəfləri müəyyənləşdiriblər.

# Fakültə Tələbə Elmi Cəmiyyəti təşkilat komitəsinin yığıncağında

**Noyabrın 14-də II müalicə-profilaktika fakültəsi üzrə Tələbə Elmi Cəmiyyətinin təşkilat komitəsi üzvlərinin toplantısı keçirilib. Toplantını fakültənin dekanı, dosent İsrail Məhərrəmbəyli açaraq təşkilat komitəsinin üzvlərinə uğurlar diləyib.**



Sonra normal fiziologiya kafedrasının dosenti, fakültə üzrə TEC-in rəhbəri Aqil Əliyev təşkilat komitəsinin üzvlərinin üzərinə düşən öhdəlik və vəzifələrdən söhbət açıb. Üzvlərə lazımi tövsiyələrini verərək bildirib ki, TEC-in növbəti konfransının keçirilməs hazırlıq işləri görülməli, təşkilat komitəsinin iş qrafiki təsdiq edilməlidir: “Konfrans iştirakçısı olan hər bir tələbənin elmi işlərinin dərci üçün ötən il olduğu kimi bu il də jurnalımız nəşr olunacaq. Tələbələr arasında bu istiqamətdə təbliğat işi aparmağa çalışın ki, məqalə dərc etdirməyə həvəsli olanlar fəallıq göstərsinlər”.

Fakültə üzrə TEC-in sədri Fidan Bəylərova öz çıxışında təşkilat komitəsinin sıralarına yeni tələbələrin də qoşulduğunu söyləyib.

“Hesab edirəm ki, təşkilat komitəsinə ötən il üzv olan tələbələr bu il də eyni fəallıq göstərəcəklər. Yeni üzv olanlara da şərait yaradacağıq ki, onlar da öz bacarıqlarını ortaya qoysunlar. Əminəm ki, yeni üzvlərimiz də qısa zamanda özlərini doğruldacaqlar.” – deyən F.Bəylərova təşkilat komitəsi üzvlərinin öz üzərlərinə düşən öhdəlikləri layiqincə yerinə yetirəcəklərinə inamını ifadə edib.

Toplantıda qarşıda duran həlli vacib digər məsələlər də müzakirə olunub.

# İctimai səhiyyə fakültəsi dekanlığının nümayəndələri ilə tələbələrin növbəti görüşü

**Azərbaycan Tibb Universitetinin ictimai səhiyyə fakültə dekanlığının nümayəndələrinin I kurs tələbələri ilə növbəti görüşü olub. Görüşdə tələbələrin valideynləri və yaxınları da iştirak ediblər.**





İctimai səhiyyə fakültəsinin dekanı, dosent Anar Ağayev görüş iştirakçılarına tədris proqramı, təhsil prosesinin ümumi tələbləri, fakültənin nəzdindəki kafedraların iş prinsipi haqqında geniş məlumat verib.

Görüşdə tələbələr dərs proqramı, təhsil zamanı üzləşdikləri çətinliklər və onları maraqlandıran digər sualları səsləndiriblər. İnteraktiv formada keçən görüşdə fakültə rəhbərliyi ilə tələbələr arasında əlaqələrin möhkəmləndirilməsi istiqamətində atılacaq addımlar da müzakirə olunub.

# Tələbələr üçün açıq mühazirə

**II müalicə-profilaktika fakültəsinin IV kurs, $211^{b}$, $213^{c}$ qrupunun tələbələri üçün açıq mühazirə keçirilib.**



İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının dosenti Rafiq Liftiyev “Şəhər əhalisinə tibbi xidmətin təşkili, formaları, prinsipləri, metodları: kənd əhalisinə tibbi xidmətin təşkili, xüsusiyyətləri və formaları” mövzusunda mühazirə oxuyub.

Məruzəçi şəhər poliklinikası, onun vəzifələri, profilaktika işi, dispanse rizasiya məsələlərindən bəhs edib. O, eyni zamanda şəhər əhalisinə stasionar yardımın, kənd əhalisinə tibbi xidmətin təşkili, tibbi xidmətin təşkili zamanı özünəməxsus cəhətlər və mövzuya uyğun digər məsələlərə toxunub.

Diskussiya şəraitində keçən mühazirədə tələbələrlə yanaşı, kafedranın aparıcı müəllimləri də iştirak ediblər.

**ATU-nun mətbuat xidməti**

Yubiley

# Şərəfli ömür yolu

**Universistetimizdə öz pedaqoji ustalığı ilə seçilən müəllimlər, elmi axtarışlardan zövq alan əsl ziyalı mövqeyi ilə fərqlənən alimlərimiz çoxdur. Onların arasında ömrünün 50 ildən artıq hissəsini Azərbaycanda tibb kadrlarının hazırlanması kimi şərəfli bir işə sərf etmiş respublikanın əməkdar müəllimi Rəşid Mahmudov da vardır.**



Rəşid Mahmud oğlu Mahmudov 1938-ci il noyabrın 28-də xalqımıza görkəmli alimlər və dəyərli ziyalılar bəxş etmiş Azərbaycanın dilbər guşəsi olan Gədəbəy rayonunun Kəsəmən kəndində dünyaya gəlib.

1945-ci ildə kənd məktəbinin I sinifinə daxil olmuş, 1955-ci ildə orta məktəbi əla qiymətlərlə bitirmişdir. Hələ uşaq yaşlarında o, həkim olmaq, xəstələrə şəfa vermək arzusunda olmuşdur. 1955-ci ildə N.Nərmanov adna Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş, 1961-ci ildə institutu fərqlənmə diplomu ilə bitirmişdir. O, təyinatla doğulub boya-başa çatdığı Gədəbəy rayonunun Rəsullu kənd xəstəxanasına baş həkim vəzifəsinə göndərilir.

1963-cü ilə qədər rayonun Şınıx bölgəsində əhalinin sağlamlığı keşiyində duraraq çoxlu sayda insanlara şəfa vermişdir. Lakin öz sənətini daha da təkmilləşdirmək və elmi axtarışlarını davam etdirmək həvəsi onu rahat buraxmırdı. Elə bu arzularla da 1963-cü ildə Tibb İnstitutunun normal fiziologiya kafedrasında aspiranturaya daxil olur. 1966-cı ildə aspiranturanı bitirib, normal fiziologiya kafedrasına müsabiqə yolu ilə assistent, 1971-ci ildə isə baş müəllim vəzifəsinə seçilir. 1983-cü ildə dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. 1991-ci ildə müsabiqə yolu ilə kafedranın dosenti seçilən Rəşid müəllim 50-yə qədər elmi məqalənin, bir neçə metodik vəsaitin müəllifidir. Çoxillik əməyinin bəhrəsi hesab olunan 856 səhifəlik "Tibbi fiziologiyanın əsasları" adlı dərslik onun yaradıcılığının zirvəsi sayılır və burada nəinki normal fiziologiya, eləcə də təbabətin digər sahələrinə dair geniş məlumatlar verilmişdir. Odur ki, tələbələr bu kitabı sevərək böyük həvəslə oxuyurlar. Onun ürəyi daima vətən eşqiylə döyünür, həmişə özünü xalqın arasında hiss edir. Tez-tez respublika televiziya kanallarında və radioda maraqlı və dəyərli çıxışlar edir.

Rəşid müəllim gözəl ailə başçısıdır. Ailəsi demək olar ki, həkimlərdən ibarətdir. Belə ki, həyat yoldaşı Adilə xanım, qızları - Aynur, Aygün, gəlini Lamiyə həkimdir. Oğlu Rəşad isə hüquqşünasdır. 6 nəvəsi vardır.

Bütün bu keyfiyyətlərlə yanaşı, Rəşid müəllim həm də gözəl iş yoldaşı və əvəzolunmaz dostdur.

Rəşid müəllimi 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm can sağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!

**Normal fiziologiya kaedrasının əməkdaşları**

# Radioloqların elmi seminarı

**Tədris Cərrahiyyə Klinikasında 8 Noyabr Ümumdünya Radioloqlar Gününə həsr olunmuş elmi seminar keçirilib.**

Seminarı giriş sözü ilə açan şüa diaqnostikası və terapiyası kafedrasın müdiri, dosent Məlahət Sultanova radioloq həmkarlarını bayram günü münasibəti ilə təbrik edərək bu günün keçirilməsinin tarixi barədə iştirakçılara ətraflı məlumat verib.



M.Sultanova 1895-ci il noyabrın 8-də alman fiziki Vilhelm Rentgenin gözə görünməyən qəribə xassəli şüalar kəşf etdiyini və həmin şüaların X şüaları adı ilə elmə daxil olduğunu bildirib. O, 2012-ci ildən etibarən Avropa Radiologiya Cəmiyyətinin, Amerika Radiologiya Kollecinin və Şimali Amerika Radiologiya Cəmiyyətinin birgə qərarı ilə hər il 8 Noyabrın Ümumdünya Radioloqlar Günü kimi qeyd olunduğunu iştirakçıların diqqətinə çatdırıb: "Radiologiya sahəsi tibbin ən öndə gedən sahələrindən biri hesab olunur. Fəxarətlə deyə bilərəm ki, bu gün istifadə etdiyimiz müayinə üsulları xəstəlikləri molekulyar səviyyədə aşkarlamağa və bu şüaların köməyi ilə xəstəliyi ilkin mərhələdə uğurla müalicə etməyə imkan verir".



M.Sultanova tibbin digər sahələrində olduğu kimi, dövlətimizin bu sahəyə də göstərdiyi diqqət və qayğısından söhbət açıb. O, gələn il bu sahəyə dair beynəlxalq konfransın keçirilməsinin də planlaşdırıldığını qeyd edib.

Seminarda dosent Rasim Bayramov "Temporal sümüyün radiologiyası", həkim-radioloq Günel Qəmbərova "İnraduktal patologiya" və rezident Gültən Rəfibəyli "Persistə edən sol yuxarı boş vena" mövzularında çıxış ediblər.

# Disfunksiyanın yaratdığı fəsadlar

**Disfunksiyalar qadınlarda son illərdə tez-tez təsadüf olunan patologiyadır. Aybaşı dövrünün pozulması olan disfunksiyalara amenoreyalar və oliqomenoreyalar aiddir.**

Amenoreyalar birincili və ikincili olur. Birincili amenoreyalar aybaşının heç olmaması deməkdir. Bu ən çox yeniyetmə qızlarda və qadınlarda müşahidə olunur. Adətən infantil (cinsiyyət üzvlərinin inkişafdan qalması) bədən quruluşuna malik qadınlarda rast gəlinir. İkincili amenoreyalar isə aybaşının ən azı 6 ay müddətində olmadığı hallar hesab edilir. Bu zaman hamiləliyin mövcud olub-olmadığını təyin etmək mütləqdir. Bunun üçün ginekoloji müayinə aparmaq lazımdır. İkincili amenoreyalar iltihabi xəstəliklərdən sonra, müxtəlif stres amillərinin təsiri, çoxsaylı abortlarla əlaqədar ola bilər.

Birincili amenoreyalar isə əsasən yumurtalıqların anadangəlmə funksiyasının zəif olması ilə əlaqədardır. Həmçinin, burada qalxanabənzər vəzin rolunu da qeyd etmək vacibdir. Amenoreya zamanı qadınlarda baş ağrısı, əsəbilik, halsızlıq, yorğunluq və s. müşahidə olunur. Zamanında və düzgün müalicə almadıqda müxtəlif fəsadlara gətirib çıxarır ki, bunlardan da ən ciddisi birincili və ikincili sonsuzluqdur.

***Zərifə HÜSEYNOVA,***
*II mamalıq-ginekologiya kafedrasının assistenti*

# MEXANİKİ VENTİLYASİYAYA DAİR SEMİNAR

**Noyabrın 13-də Tədris Cərrahiyyə Klinikasının neonatologiya şöbəsində həkim-rezidentlərin, tələbələrin iştirakı ilə mexaniki ventilyasiyaya dair seminar keçirildi.**

Mexaniki ventilyasiyanın tətbiqi tarixindən də danışan P.Orucova



Yenidoğulmuşlarda mexaniki ventilyasiyanın hansı yollarla aparılmasının müzakirə ediləcəyini deyən II uşaq xəstəlikləri kafedrasının assistenti, t.ü.f.d. Püstə Orucova əvvəlcə tənəffüsün mexanizmi, tənəffüs aktının necə baş verməsi barədə məlumat verdi. Yeni doğulan körpələrdə, xüsusilə yarımçıq doğuşlarda respirator distress sindromuna (RDS) daha çox rast gəlindiyini, yəni onların ağ ciyərlərinin, mərkəzi sinir sisteminin yetişməmədiyinə görə tənəffüslərində problemlərin yarandığını bildirdi. Qeyd etdi ki, döş qəfəsinin daralması, önə doğru qabarıq olması, bəzən də qabırğaarası sahələrin içəri dartılması və tənəffüs zamanı diafraqmanın hərəkətliliyi klinik əlamətlərdir.

Bildirildi ki, mexaniki ventilyasiyada əsas məqsəd normal qaz mübadiləsini təmin etmək, ağ ciyərlərin zədələnmə riskini və tənəffüs işini azaltmaqdır. Doğuş zalında 26 həftədən kiçik, eyni zamanda travma alan, baş-beyin zədələnməsi, ürək-damar çatmamazlıqları, diafraqma yırtıqları olan uşaqlar üçün mexaniki ventilyasiya mütləq göstərişdir.

ağ ciyərin hava tutumuna aid bəzi terminlərə, o cümlədən təzyiqlərin millimetr civə sütunu ilə ölçüldüyü halda, respirator sistemdə təzyiqin nə üçün santimetr su sütunu ilə ölçülməsinə də aydınlıq gətirdi. Diqqətə çatdırdı ki, komplayns 1 sm su sütununun yaratdığı həcm idisə, rezistentlik 1 litr havanın nə qədər təzyiq yaratmasıdır. Onu da vurğuladı ki, SPAP (continuous positive airway pressure) – tənəffüs yollarında daimi (yəni fasiləsiz dəstəklənən) müsbət təzyiqin yaradılması yenidoğulmuşlarda tənəffüs çatışmazlığının profilaktika və müalicəsində qeyri-invaziv metoddur.

Seminarda ağıllı ventilyasiya aparatının üstünlüklərindən, yenidoğulmuşlarda tənəffüs parametrlərinin normalarından da ətraflı söhbət açıldı.

Müxtəlif diaqram, cədvəl və slaydlarla müşayiət olunan seminarın sonunda dinləyiciləri maraqlandıran suallar da cavablandırıldı.

**ATU-nun mətbuat xidməti**

# 21 illik əziyyətə son

**Tədris Cərrahiyyə Klinikasında 21 il öncə səhv diaqnozla müalicə alan xəstə uğurlu əməliyyat olunub. Klinikanın torakal cərrahı, t.ü.f .d. Arif Ağayev deyir ki, xəstədə anadangəlmə ön divar aralığında (ürəklə ağciyərlər arasında) törəmə olub.**



"Xəstə indi 27 yaşındadır. 5-6 yaşından davamlı öskürək, boğulma, davamlı yüksək temperaturdan, döş qəfəsində şiddətli ağrılar şikayəti ilə müxtəlif xəstəxanalarda uzun müddətli müalicələr almışdır. Lakin əlbəttə, həmin illər Azərbaycanda səhiyyənin səviyyəsi indiki ilə müqayisədə yüksək deyildi və ona görə də xəstəyə səhv diaqnoz qoyulub və onun anadangəlmə qüsuru yanlış dəyərləndirilib. Xəstə davamlı olaraq vərəm, astma, pnevmaniyadan və s. kimi yanlış xəstəliklərdən müalicə alıb".

A.Ağayevin sözlərinə görə, xəstə klinikaya müraciət etdikdə davamlı bəlğəmli öskürürək, ara-sıra temperaturun yüksəlməsindən, təngnəfəslikdən şikayət edib: "Ən əsası odur ki, xəstə nə qədər müalicə olunsa da, bu problem aradan qalxmamışdır. Biz gəncin müayinə nəticələrinə nəzər saldıq, lazımi yeni müayinələr də apardıq. Bizim müayinələr əsasında xəstənin ön divar aralığı dediyimiz bölgəsində törəmə olduğu aşkarlandı. Bu, anadangəlmə dermoid sist və ya teratoma kimi dəyərləndirildi və törəmənin xoşxassəli olduğu təsdiqləndi".

Məlum olub ki, bu törəmə 21 il öncə irinləyərək ağciyərə yol açıb. Bu illər ərzində törəmə fasiləsiz olaraq irinləyib, iki orqan arasında yaranmış yoldan bu irin ağciyərə tökülüb. Ona görə də həkimlər bunu ağciyər problemi kimi qəbul ediblər.

Arif Ağayev bildirir ki, uzun sürən müayinələrdən sonra, xəstədə vərəm olmadığı təsdiqlənib və xəstə əməliyyata alınıb: "Xəstənin törəməsi çıxarıldı. Və irinlənmiş ağciyərin irinli və öz fəaliyyətini itirmiş 2 payı çıxarıldı. Əməliyyat 8 saat yarım davam etdi və uğurla nəticələndi".

Həkim qeyd edir ki, əməliyyatdan sonra xəstənin vəziyyəti normaldır və o mütəmadi olaraq kontrol müayinələrə gəlir, hər hansı şikayəti qeyd olunmur.

# Əməkdaşlarımız beynəlxalq tədbirdə

**Azərbaycan Tibb Universitetinin nümayəndə heyəti Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən beynəlxalq tədbirdə iştirak ediblər. II mama ginekologiya kafedrasının assistenti Nərgiz Şəmsəddinskaya, Tədris Cərrahiyyə Klinikasının ginekoloqu Nigar Axundova və damar cərrahı Tehran Şəmsəddinskaya XXII RİO Ümumdünya Ginekologiya və Mamalıq Konqresində ATU-nu təmsil ediblər.**



N.Şəmsəddinskaya sözügedən tədbirə ötən il dəvət aldıqlarını dedi: “Təxminən bir il bundan öncə Tiflis şəhərində keçirilən tədbirdə FİGO-nun keçmiş prezidenti ilə görüşdük. O bizi bu konfransa dəvət etdi. Konfrans hər 3 ildən bir keçirilir. Builki tədbir müasir ginekologiyaya aid aktual problemlərə həsr edilmişdi. Burada həm mamalıq, həm ginekoloji, həm də onkoloji problemlərdən bəhs edilirdi. Qeyd edim ki, xarici ölkələrdə təkcə ginekoloji deyil, bəzi onkoloji xəstəlikləri olan qadınlar da ginekologiya şöbəsinə müraciət edirlər”.

ATU-nun həkimləri beynəlxalq tədbirdə “Hamilə qadınlarda trombosit fəsadlar” mövzusunda posterlə çıxış ediblər. 5 gün davam edən konqresə müxtəlif ölkələri təmsil edən mama-ginekoloqlar qatılıb: “Çox şadam ki, bu konqresdə həm Azərbaycanı, həm də Tibb Universitetini təmsil etdik. O cümlədən, üç ildən bir baş tutan federasiya prezidenti seçkilərində də iştirak etdik, öz səsimizi verdik”.

Nərgiz Şəmsəddinskaya tədbirdə xoş bir hadisə ilə də rastlaşıb. Belə ki, orada tanış olduğu panamalı ginekoloq həkim elmi işini Bakıda müdafiə edib: “Həmin xanım Panamanın ilk mama-ginekoloqudur. Onun elmi rəhbəri mənim nənəm, mama-ginekoloq Naziyə Şəmsəddinskaya olub. Mənə nənəmin indiyədək qoruyub saxladığı şəklini də göstərdi. Təbii ki, bu məni çox fərəhləndirdi”.

# Rezidentlərin bacarıq imtahanları keçirilib

**Oktyabrın 29-dan 30-a kimi Tədris Cərrahiyyə Klinikasında rezidentlərin yekun attestasiya imtahanlarının 2-ci hissəsi–bacarıq imtahanları keçirilib.**



ATU-nun Rezidentura və magistratura şöbəsinin müdiri, professor Rizvan Məmmədovun sözlərinə görə, rezidentlərin bacarıq imtahanları uğurla başa çatıb: “Birinci mərhələni yəni, 38 ixtisas üzrə keçirilən test imtahanını uğurla keçən rezidentlər 2-ci mərhələyə buraxıldılar. İkinci mərhələdə 15 nəfər rezident imtahandan kəsildi, 21 nəfər müxtəlif səbəblərdən imtahanda iştirak etmədi”.



R.Məmmədov imtahan prosesi zamanı hər hansı problemə rast gəlinmədiyini bildirdi: “Sadəcə, bəzi fənnlər üzrə sualların dəyişdirilməsi məsələsi müzakirə olundu. Xüsusilə də, bacarıq imtahanlarında bəzi ixtisaslar üzrə təkrar suallar vardı. Bu sualların dəyişdirilməsi gələn ilə planlaşdırıldı”.

Qeyd edək ki, bu il 41 bazadan ümumilikdə 330 nəfər yekun attestasiyasına buraxılıb ki, onlardan da 127 nəfəri ATU-nun məzunlarıdır. Ümumilikdə rezidenturaya aid 38 ixtisas üzrə 375 nəfər yekun attestasiyadan keçib.

# ATU-nun nümayəndələri Pakistanda keçirilən beynəlxalq simpoziumda iştirak ediblər

**❋ Noyabrın 4-8-dək Azərbaycan Tibb Universitetinin ümumi və toksikoloji kimya kafedrasının müdiri, professor Eldar Qarayev və həmin kafedranın assistenti Kəmalə Bədəlova Pakistanın Karaçi Universitetində keçirilən “Gələcək naminə təbii maddələr üzrə 2-ci (ISNPF-2) beynəlxalq simpozium” və “Təbii maddələr kimyası üzrə 14-cü (ISNPC-14) beynəlxalq simpozium”da iştirak ediblər.**

Afrika dövlətləri, Livan, Çin, Qazaxıstan, Koreya və s.) aparıcı elm mərkəzlərindən və ali təhsil ocaqlarından alimlər öz elmi-tədqiqat işlərinin nəticələri haqqında maraqlı məruzələr ilə çıxış ediblər. Tədbir UNESCO, İƏT-in Elm Fondu və Karaçi Universitetinin Beynəlxalq Kimya və Biologiya Elmləri Mərkəzi (ICCBS) tərəfindən təşkil edilib.

Simpozium çərçivəsində universitet daxili müxtəlif elmi-tədqiqat laboratoriyalarına, mərkəzin kitabxanasına, heyvanlar



Simpoziumda professor Eldar Qarayev “Azərbaycan florasından Stachys annua L. bitkisinin bioloji fəal maddələri” və assistent Kəmalə Bədəlova “Bəzi təbii bioloji obyektlərdə aluminiumun təyin edilməsi” mövzusunda məruzə ilə geniş auditoriyada çıxış ediblər. Tədbirdə əcnəbi alimlərin, eləcə də gənc alim və tələbərin çoxsaylı poster təqdimatları nümayiş etdirilib.

Qeyd edək ki, simpoziumda dünyanın 23 ölkəsinin (Türkiyə, Almaniya, Fransa, ABŞ, İngiltərə, İraq, Misir, Malayziya, Şri-Lanka,

evinə (animal house) baxış, müxtəlif elm adamları, alimlər ilə görüşlər keçirilib. Tədbir çərçivəsində mərkəzin direktoru, professor M.İqbal Choudhary ilə, müsəlman ölkələrindən (Azərbaycan, İraq, Livan Misir, Malayziya) olan nümayəndə heyəti ilə, eləcə də dunya miqyasında tanınmış alim, professor Atta-ur-Rəhman ilə görüşlər keçirilib. Nümayəndə heyətimiz yerli qəzetə müsahibə də verib.

**ATU-nun mətbuat xidməti**

# “Diş ətlərində qanaxma özbaşına yarana bilməz”

**Hazırda informasiya əsri olmasına baxmayaraq, hələ də insanlar sadə gigiyena qaydalarına düzgün riayət etmirlər. Bunlardan biri də dişlərə qulluqla bağlıdır. ATU-nun assistenti, stomatoloq Narin Babayeva deyir ki, diş xəstəliklərinin daha çox rast gəlinən patologiyaları ağız boşluğunun gigiyenası ilə bağlıdır.**



“Əfsuslar olsun ki, pasiyentlərin əksəriyyəti dişlərini düzgün təmizləmir. Nəticədə ağızda diş daşları və diş ərpi yaranır. Digər tərəfdən, dişlərə düzgün qulluq olunmadığından, müxtəlif xəstəliklər, diş ətinin iltihabı ilə bağlı problemlər yaranır. Bunlar arasında gingevit, paradantoz, periodontitin adlarını çəkmək olar. Vaxtında müdaxilə olunmasa, bu xəstəliklər xroniki formaya keçərək ömür boyu davam edə bilər”.

N.Babayevanın sözlərinə görə, diş ərpi xüsusi aparatlar “Skeyler Air Flow” vasitsəilə polişenk materiallar vasitəsilə cilalanıb təmizlənir. Prosedur zamanı pasiyentlərə dişlərin düzgün təmizlənməsi qaydaları da öyrədilir. Xəstə prosedurdan altı ay sonra yenidən dəvət olunur. Müayinə zamanı problemin qaldığı müəyyən olunursa, yenidən xəstəyə müalicə yazılır.

Narin Babayeva xəstələrdə tez-tez qanaxmalar yaranmasını da diş daşları və diş ərpi ilə əlaqələndirir. Əgər bu hallar yoxdursa, onda qanaxma düzgün qoyulmamış plomb və ya qapaqla bağlıdır. Çünki qanaxmalar özbaşına yaranmır, yalnız xroniki sistem xəstəlik zamanı meydana çıxır.

Stomatoloq bildirir ki, diş əti ilə bağlı problemlərə adətən 25-50 yaş arasında xəstələrdə daha çox rast gəlinir. Çünki gənc yaşlarında adətən insanlar dişlərinə də yaxşı qulluq edirlər. Amma orta yaşlarda insanlar ailə qurur, qayğıları artır, işləyirlər, vaxt qıtlığı yaranır və onlar səhhətlərinə vaxt ayırmırlar. Bu zaman elementar gigiyena qaydaları da unudulur.

Odur ki, valideynlər övladlarına kiçik yaşlardan dişlərinə qulluq vərdişlərini aşılamalıdır. N.Babayeva məsləhət görür ki, ilk dəfə uşağa diş fırçası aldıqda iki ədəd eyni fırça alınsın. Bunlardan biri uşağın oyuncaqlarının arasında saxlanılsın və daim oyunlarda istifadə olunsun. Belə olduqda, uşaq dişləri təmizləməyə həmişə oyun kimi yanaşacaq və şıltaqlıq etməyəcək, bu prosedurdan çəkinib qorxmayacaq. Bəzən valideynlər uşaqlara yaşına uyğun olmayan sərt diş fırçası alırlar. Buna görə dişin mina qatı məhv olur.

N.Babayeva diş əti ilə bağlı xəstəliklərin önlənməsi üçün zəruri profilaktik tədbirlərin görülməsini tövsiyə edir. Hər bir insan altı aydan bir, heç olmasa ildə bir dəfə stomatoloq müayinəsindən keçməli və nəyə diqqət yetirməyin lazım olduğunu bilməlidirlər.

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ**
**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

### Kafedraların professorları:

- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- İctimai fənlər kafedrası - 1 yer
- III cərrahi xəstəliklər kafedrası - 1 yer
- I cərrahi xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)

### Kafedraların dosentləri:

- Terapevtik stomatologiya kafedrası - 2 yer (0,5 vahid)
- İctimai fənlər kafedrası - 1 yer (0,75 vahid)
- I uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid)
- Dermatovenerologiya kafedrası - 1 yer
- Normal fiziologiya kafedrası - 1 yer
- II mamalıq və ginekologiya kafedrası - 1 yer
- Patoloji anatomiya kafedrası - 1 yer
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 3 yer
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer
- Uşaq stomatologiyası kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer
- II daxili xəstəliklər kafedrası - 1 yer
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer (0,75 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 2 yer
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- Farmakolgiya kafedrası - 1 yer (0,5 vahid)
- Farmakologiya kafedrası - 1 yer
- II mamalıq və ginekologiya kafedrası - 1 yer (0,75 vahid)
- III cərrahi xəstəliklər kafedrası - 1 yer
- Tibbi biologiya və genetika kafedrası - 1 yer (0,75 vahid)
- III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

### Kafedraların assistentləri:

- Farmakologiya kafedrası - 2 yer
- I uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- Histologiya, embriologiya və sitologiya kafedrası - 1 yer
- Urologiya kafedrası - 1 yer (0,5 vahid)
- Psixiatriya kafedrası - 1 yer (0,5 vahid)
- II uşaq xəstəlikləri kafedrası - 2 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer ( 0,5 vahid)
- II daxili xəstəliklər kafedrası - 1 yer
- III cərrahi xəstəliklər kafedrası - 2 yer (0,5 vahid)
- II mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- II mamalıq və ginekologiya kafedrası - 1 yer
- Travmatologiya və ortopediya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 2 yer
- Ailə təbabəti kafedrası - 1 yer
- Ftizatriya kafedrası - 2 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 2 yer (0,5 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

### Kafedraların baş müəllimləri:

- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1yer
- Histologiya, embriologiya, sitologiya kafedrası - 5 yer
- Tibbi biologiya və genetika kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer

### Kafedranın müəllimi:

- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-43-23

**Yeni nəşrlər**

# Yeni "Uşaq xəstəlikləri" dərsliyi çapdan çıxıb

**Azərbaycan Tibb Universitetinin müəllimləri tərəfindən hazırlanan "Uşaq xəstəlikləri" adlı dərslik çapdan çıxıb. Kitabın müəllifləri II uşaq xəstəlikləri kafedrasının müdiri, professor Amaliya Əyyubova, kafedranın professoru Hüseyn Qabulov və professor Nailə Sultanovadır.**




Professor Amaliya Əyyubovanın verdiyi məlumata görə, dərslik ATU-nun müalicə-profilaktika fakültəsində tədris üçün hazırlanıb. Və bu mövzuda dərsliyin nəşri böyük əhəmiyyət kəsb edir. Çünki zaman keçdikcə, müalicə-profilaktika fakültəsinin proqramında dəyişikliklər olub. Digər tərəfdən, tibb də yerində saymır, müxtəlif növ yeni uşaq xəstəlikləri ortaya çıxır: "Biz bu kitabdan öncə də dərsliklər nəşr etmişik. Lakin həmin kitablar daha çox pediatrların istifadəsi üçün daha yararlı olub. Çünki müalicə-profilaktika fakültəsinin proqramı dəyişilir və bu fakültədə təhsil alan tələbələrə pediatrlar kimi hər xəstəlik haqqında geniş məlumat verilmir. Buna görə qısa bir müddətdə tamamilə başqa tərzdə dərsliyin yazılması qərarını verdik".

A.Əyyubovanın sözlərinə görə, kitab 2 il yarım müddətində ərsəyə gəlib. Üç professorun birgə gərgin əməyi nəticəsində 567 səhifədən ibarət dərslik hazırlanıb. Bu kitab 3 kurs üçün nəzərdə tutulub, dərslikdə bütün fakültə tələbələrinin proqramına uyğun kompakt şəkildə materiallar təqdim olunub.

# Minnətdarlıq

**Respublikamızın digər sahələrində olduğu kimi səhiyyə sistemində də ciddi müsbət dəyişikliklər vardır. Bu, möhtərəm prezidentimizin daimi qayğısı sayəsindədir. Buna misal olaraq Azərbaycan Tibb Universitetinin Tədris-Cərahiyyə Klinikasını göstərmək olar.**

Sağlamlığımda baş verən problemlə əlaqədar olaraq mən bu klinikaya müraciət etdim. Görkəmli sovet teatrşünası Stanislavski vaxtı ilə demişdir: "Teatr qarderobdan başlayır." Mən bunları klinikaya daxil olan dəqiqələrdən hiss etdim. Belə ki, fizioterapiya və tibbi reablitasiya şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Nurlana xanım Əliyeva məni yüksək dərəcədə hörmət və ləyaqətlə qarşıladı, səhhətimlə tanış oldu. Müalicəni davam etmək üçün şöbənin təcrübəli tibb işçisi Sara xanıma müəyyən göstəriş və tapşırıqlar verdi. Sara xanım təcrübəli tibb işçisi olmaqla yanaşı, həm də şairədir. Əməliyyatlar zamanı özünün yazdığı şeirləri söyləyirdi, bu da mənə müalicə qədər zövq verirdi. Qeyri ixtiyari olaraq keçən əsrin 60-cı illərində professor İ.Topçubaşovun cərrahi əməliyyatlarda musiqidən istifadə etməsi haqqında söhbətlər yada düşürdü.

Qadın müqəddəs varlıqdır. Vaxtı ilə H.Cavid yazmışdır: "Sürüklənən bəşəriyyət qadın əllərilə yüksələcək".

Bir şeirdə deyildiyi kimi:

*Qadın əlləriylə hər ev , hər ocaq*
*Ətirlər qoxuyub, gül-çiçək açar.*
*Həyatın mənası qadındır, ancaq*
*Bağlı qapıları o əllər açar.*

Mənə sağlamlığımı qaytardıqlarına görə bütün tibb personalına, xüsusilə Nurlana xanıma və Sara xanıma öz dərin minətdarlığımı və təşəkkürümü bildirirəm. Son olaraq onu da qeyd etmək istəyirəm ki, sağlamlığında hər hansı çatışmamazlıq olan vətəndaşların uzaq ölkələrə getmələrinə heç bir lüzum yoxdur. Bu məqsədlə öz klinikalarımıza müraciət etmələrini məsləhət görürəm.

**Hörmətlə:** **A.Vələdov,**
*Normal fiziologiya kafedrasının dosenti*

# Sepsislə bağlı seminar

**Tədris Terapevtik Klinikada rezidentlərin növbəti klinik daxili seminarı keçirilib. Seminarda klinikanın reanimasiya və intensiv terapiya şöbəsinin həkimi Emil Qasımovun məruzəsi dinlənilib. O, bildirib ki, sepsis həkimlər və cəmiyyət tərəfindən geniş tanınmasa da, bu sindrom hələ Hippokratın dövründən məlum olub. Son 25-30 ildə bu sindromun adfamiliyası 3 dəfə dəyişib.**





Dünyada bu xəstəliyin tanınması üçün Dünya Sepsis Alyansının fəaliyyətdə olduğunu, hər il sentyabrın 13-ü Dünya Sepsis Günü kimi qeyd olunduğunu bildirən məruzəçi alyansın məqsədləri və strategiyası barədə də ətraflı məlumat verib.

ABŞ-da və bir sıra inkişaf etmiş Avropa dövlətlərində sepsisin normal qeydiyyatının aparıldığını deyən E.Qasımov anoloji vəziyyətin Azərbaycan, Rusiya və Türkiyə kimi ölkələrdə qənaətbəxş olmamasına da toxunub. Hər il dünyada 25-30 milyon arası sepsis diaqnozunun qoyulduğunu vurğulayıb.

Bir sıra ölkələrdə sepsisin vəziyyətinin müqayisəli təhlilinə toxunan E.Qasımov bu sindiromun geriyə döndərilə bilən sindrom olduğunu iştirakçıların diqqətinə çatdırıb. Tövsiyəsi bu olub ki, əgər xəstə düzgün diaqnoz əsasında müalicə alarsa, müsbət nəticə verər.

Məruzəçinin çıxışı rezidentlər tərəfindən maraqla qarşılanıb. Verilən suallar E.Qasımov tərəfindən ətraflı cavablandırılıb.

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin I kurs, $218^{a-1b}$ qrup tələbəsi İsmayılova Nərmin İlqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $171^{a}$ qrup tələbəsi Sadıqov Amin Elman oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, $211^{a}$ qrup tələbəsi Hüseynova Ülviyyə Ənvər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Patoloji fiziologiya kafedrasının əməkdaşları kafedranın assistenti Aytac Bədəlovaya nənəsi **Lala xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Zakir Qarayevə həyat yoldaşı **Ellada xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ailə təbabəti kafedrasının əməkdaşları II müalicə-profilaktika fakültəsinin dekan müavini Arzu Bəydəmirovaya qardaşı **Vüqar Bəydəmirzadənin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın dosenti İlham Mahmudova bacısı **Nahidə xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları Gülnarə Vəliyevaya qardaşı **Musa Vəliyevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın dosenti Nurəddin Xudaverdiyevə qardaşı **Firəddin Xudaverdiyevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları əczaçılıq kimyası kafedranın müdiri, professor Tahir Süleymanova anısı **Lala xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Zərifə Nəsirovaya atası **Cahangir Nəsirovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.



**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - $98^{c}$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tibbiqazeti@gmail.com**



Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800